# Abdulla Şaiqin 130 illiyinə həsr olunmuş xatirə gecəsi



Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Abdulla Şaiqin mənzil muzeyində ədibin 130 illiyinə həsr olunmuş "Yad et məni" mövzusunda xatirə gecəsi keçirilmişdir.

AzərTAc xəbər verir ki, muzeyin və ədibin adını daşıyan 54 nömrəli orta məktəbin təşkilatçılığı ilə keçirilmiş tədbirdə Abdulla Şaiqin mənzil muzeyinin direktoru Ülkər Talıbzadə sənətkarın həyat və yaradıcılığından söhbət açmışdır.

Çıxış edənlər ömrünün 60 ilini xalqına xidmətə həsr edən Abdulla Şaiqi bir daha xatırlamaq və onun ədəbi-ictimai fikir tariximizdə oynadığı əhəmiyyətli rolunu Azərbaycan ictimaiyyətinin diqqətinə çatdırmağın vacibliyini vurğulamışlar. Bildirilmişdir ki, bütün dövrlər üçün aktual olan A.-Şaiq irsinin təbliğinin böyüməkdə olan gənc nəslin yetişməsində böyük əhəmiyyəti vardır.

Xatirə gecəsində 54 nömrəli məktəbin şagirdləri ədibin "Yad et" şerini söyləmiş, "Nüşabə" pyesindən, "Tıq-tıq xanım" tamaşasından səhnəciklər və "Güllər" kompozisiyasını nümayiş etdirmişlər.

Tədbirdə ədibin mənzil muzeyin fondunda qorunan orijinal fotoları əsasında hazırlanmış slayd-şou nümayiş etdirilmişdir.